# İnternetin tənzimlənməsinin müasir problemləri

**Murad Qafarlı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** muradgafar@gmail.com

**Rəyçilər:** ped..ü.e.d., prof. Ə.Q. Pələngov,
tex.e.ü.f.d., dos. Ç.M. Həmzəyev

**Açar sözlər:** internetin tənzimlənməsi, internet-yurisdiksiya, şəbəkə, internet provayder, kibercinayətkarlıq

**Ключевые слова:** регулирование интернета, интернет-юрисдикция, сеть, интернет-провайдер, киберпреступность

**Key words:** internet regulation, internet jurisdiction, network, internet provider, cybercrime

İnternet müasir dünyada informasiya cəmiyyətinin əsas vasitələrindən biri kimi ən mühüm fenomenə çevrilməkdədir. İnternet şəbəkəsinin yaratdığı geniş imkanlar nəticəsində artıq insanların düşüncəsində, iş fəaliyyətində, ünsiyyətində və sosial fəaliyyətində böyük dəyişikliklər baş verməkdədir. İnternet özünün sürətli inkişafı nəticəsində coğrafi sərhədlər çərçivəsində tətbiq olunan ölkə qanunlarını və beynəlxalq hüquq normaları gücsüz vəziyyətə gətirmişdir. Beləliklə də virtual münasibətləri mövcud qanunlarla tənzimləmək çox çətinləşir və hətta bəzi hallarda mümkün olmur. Buna görə də virtual münasibətləri hüquqi tənzimləmək üçün bu mühitə xas yeni qanunların, hüquq normalarının yaradılması, tətbiq edilməsi zərurəti meydana çıxır. Hazırda İnternetin ayrı-ayrı seqmentlərinə münasibətdə dövlət yurisdiksiyasının hüdudları ilə bağlı problemlər müasir hüququn ən mühüm və mürəkkəb məsələlərindən biri kimi çıxış edir. İnternetin qlobal xarakteri milli qanunvericilik sistemləri ilə beynəlxalq praktika arasında ziddiyyət yaradır. Məhz buna görə də İnternet vasitəsilə həyata keçirilən virtual fəaliyyət beynəlxalq ictimaiyyətin dəstəyi ilə yeni tənzimləmə mexanizmlərinin işlənməsini tələb edir. Bundan başqa, İnternet istifadəçilərinin bir hissəsi qlobal şəbəkədə "məkansızlıq" ideyasını əsas tutaraq, özlərinin qanundan və dövlətdən asılı olmadıqlarını bəyan edirlər və "suveren şəbəkə" uğrunda mübarizə aparırlar. İnternet cəmiyyətinin nümayəndələri arasında qlobal şəbəkənin tənzimlənməsi vacib deyil, hətta qeyri-mümkündür fikirləri də geniş yayılıb. Onların fikrinə görə, İnternet artıq unikal ünsiyyət vasitəsidir və heç bir dövlətə mənsub deyil, internet resurslarına çıxış xüsusi hüquqlara aid olduğuna görə, onun qarşısında hər-hansı inzibati maneə qoyula bilməz, internet – tamamilə özünütənzimləyən informasiya mühitidir. Onun istifadəçiləri isə bu qlobal resursdan istifadə qaydalarını sərbəst şəkildə müəyyən etməlidirlər.

İlk vaxtlar hətta belə bir fikir də yayılmışdı ki, bu qlobal şəbəkə milli sərhədləri aşacaq və dövlət suverenliyi prinsipini pozacaq. Qlobal şəbəkədə söz azadlığının müdafiəsi, kiberməkanda sosial və hüquqi problemlərin tədqiqi ilə məşğul olan Elektron Sərhəd Fondunun (Electronic Frontier Foundation) yaradıcısı və vitseprezidenti Con Perri Barlou özünün məşhur "Kiberməkanın müstəqilliyi" adlı Bəyannaməsində bütün dövlətlərə belə bir müraciət ünvanlamışdı: "Bizim aramızda sizə yer yoxdur. Bizim toplandığımız yerdə siz yuxarı hakimiyyətə malik deyilsiniz. Bizim üzərimizdə hökmranlıq etməyə sizin nə mənəvi haqqınız, nə də məcburetmə metodunuz var. Siz nə bizi, nə də bizim dünyamızı tanımırsınız.

Kibermәkan sizin sәrhәdlәrinizdәn kәnarda yerlәşir” [1].

Artıq internetin sürәtli inkişafı nәticәsindә onun fәaliyyәtini tәnzimlәyәn ölkәlәrin sayı durmadan artır. Bunun isә bir çox sәbәblәri mövcuddur. Mәsәlәn: “milli tәhlükәsizliyin tәmin edilmәsi”, “milli-mәdәni normaların vә dini dәyәrlәrin mühafizә edilmәsi”, “uşaqların pornoqrafiyadan vә istismardan qorunması”, “intellektual mülkiyyәt hüquqlarının müdafiәsi” vә s.

İnternetin unikal olması, hәr hansı hüquqi vә ya fiziki şәxsin, yaxud dövlәtin mülkiyyәtindә olmaması bu qlobal şәbәkәnin heç bir bölümündә mәrkәzlәşdirilmiş tәnzimlәmә, senzura vә digәr informasiyaya nәzarәt metodları mövcud olmamasına gәtirib çıxarır. Buna görә dә lazım olan istәnilәn informasiyanı heç bir mәhdudiyyәt olmadan әldә etmәk imkanı yaranır vә nәticәdә informasiya sahiblәrinin hüquqlarının pozulması halları artıq nәzәrә çarpacaq dәrәcәdә artır. Bu sәbәblәrdәn dolayı informasiya tәhlükәsizliyinin tәmin edilmәsi problemi vә kompyuter cinayәtkarlığı ilә mübarizә sisteminin yaradılması hazırda xüsusi aktuallıq kәsb edir.

Söz azadlığının reallaşdırılması artıq internet sayәsindә әvvәllәr mümkün olmayan sәviyyәyә çatmışdır. Lakin bu azadlıq formasının meydana çıxması şәraitindә şәxsi hәyatın toxunulmazlığı, şәxsi mәlumatların tәhlükәsizliyi vә söz azadlığı getdikcә daha çox pozulmaqdadır. Mәhz buna görә dә İnternetin tәnzimlәnmәsi sahәsindә әn aktual mәqamlardan biri dә mәhz dövlәtin, cәmiyyәtin vә şәxsiyyәtin tәhlükәsizliyi ilә insan hüquqları arasındakı tarazlığın qorunub saxlanması ilә bağlıdır.

Digәr bir problem odur ki, internet texnologiyalarının vә internetin inkişaf sürәti bu sahәdә mövcud olan vә yeni yaranan problemlәri tәnzimlәmәk üçün zәruri olan normativ-hüquqi aktların qәbulu prosesini xeyli qabaqlayır. Mәhz bu sәbәbdәn dolayı baş verәn texnoloji yeniliklәrә qanunvericilik sistemlәrinin çevik, adekvat reaksiya vermәlәrinin hüquqi mexanizmlәrini işlәyib hazırlanmalıdır [2].

Şәxsi hәyatın toxunulmazlığının vә fәrdi mәlumatların qorunması problemlәri internetin tәnzimlәnmәsindә bir-biri ilә çox sıx bağlı olan aspektlәridir. Şәxsi hәyatın toxunulmazlığını tәmin edәn hüquqi mexanizm kimi informasiyanın qorunmasını göstәrmәk olar. İnsanın әsas konstitusion hüquqlarından biri dә – şәxsi hәyatın toxunulmazlığı hüququdur. Bu hüquqa aşağıdakılar aiddir :

— şәxsin razılığı olmadan onun şәxsi hәyatı haqqında informasiyanın toplanmasının, saxlanmasının, istifadәsinin vә yayılmasının qadağan olunması;

— fәrdi mәlumatların qorunması hüququ;

— özü haqqında informasiyaya nәzarәt etmәk hüququ;

— şәrәf vә lәyaqәtin qorunması hüququ;

— mülkiyyәt hüququ;

— rabitә sirri hüququ vә s. [3]

Fәrdi mәlumatlar — şәxsin kimliyini birbaşa vә ya dolayısı ilә müәyyәnlәşdirmәyә imkan verәn istәnilәn mәlumatdır [4]. Eyni zamanda konkret insan haqqında, onunla eynilәşdirilәn vә ya eynilәşdirilә bilәn (maddi daşıyıcıda әks olunmuş) informasiyadır. Fәrdi mәlumatlara bioqrafik vә fәrqlәndirici (tanıdıcı) mәlumatlar, şәxsi xarakteristika (xasiyyәtnamә), ailә vә sosial vәziyyәt, tәhsil, peşә, xidmәt vә maliyyә vәziyyәti, sağlamlıq vә s. vәziyyәti barәdә mәlumatlar aid edilir. İnternetdә işlәyәrkәn istifadәçilәr haqqında olan mәlumatlar müәyyәn şәxslәr üçün әlyetәrli olur. Bu mәlumatlar istifadәçini birmәnalı olaraq identifikasiya etmәyә imkan verir (mәsәlәn, onun adı, soyadı, doğum tarixi, yaşadığı yer, peşәsi, iş yeri haqqında informasiyalar vasitәsi ilә). İstifadәçi aşağıdakı vasitәlәrlә işlәyәrkәn onun haqqında mәlumat

digər şəxslər (istifadəçilərin daxil olduqları resursların sahibləri, elektron məktubları qəbul edənlər, istifadəçiyə xidmət göstərən provayder, ən müxtəlif məkrli niyyətləri olan üçüncü şəxslər və s.) məlumat əldə edə bilərlər – veb-saytların məzmunu ilə tanış olarkən; loq-faylların məzmununu işləyərkən; elektron poçtdan istifadə edərkən (elektron məktubların başlıqları üzrə); provayderin modeminə qoşularkən və s. hallarda həyata keçirilə bilər. Beləliklə yuxarıda sadaladığımız hallarda və qeyd olunan şəxslər istifadəçilər haqqında məlumatı çox asanlıqda əldə edə bilər. Bu isə brauzerlərin işləmə texnologiyası, informasiya təhlükəsizliyi sahəsində olan qüsurlar, provayderlərin səhlənkarlığı və s. İstifadəçilərin hüquqlarının pozulmasına gətirib çıxarır. Bütün bunlar da şəxsi həyat sirrinin və fərdi məlumatların qorunması üçün İnternetdə optimal tənzimlənmə siyasətinin həyata keçirilməsi zərurətini ortaya çıxır.

İntellektual mülkiyyət hüquqlarının qorunması problemləri də internetin təsiri ilə qloballaşan dünyada mühüm problemlərdən biridir. Bilik və ideyalar qloballaşan iqtisadiyyatda artıq mühüm resursa çevrilməkdədir. Bu isə əqli mülkiyyət hüququ anlayışını İnternetin tənzimlənməsində zəruri bir amilə çevirir. Əlbəttə cəmiyyətin inkişafı baxımından, İnternetdə ədəbiyyat, incəsənət əsərləri, filmlər, elmi əsərlər, proqram təminatı və verilənlər bazası nə qədər çox olarsa, bir o qədər yaxşıdır. Çünki bu operativ şəkildə və minimal xərclər hesabına həmin mənbələri nəhəng istifadəçi auditoriyasına təqdim etməyə imkan verir, bu da şəxsiyyətin və cəmiyyətin inkişafına xidmət edir. Bu isə tez-tez müəllif hüquqlarını pozulmasına şərait yaradır. Beləliklə, informasiya mübadiləsi azadlığı müsbət tərəfləri ilə yanaşı, neqativ nəticələrə də yol açır. Məhdudiyyətsiz olaraq materialların köçürülməsinin qarşısının alınması və paralel olaraq həmin materiallardan istifadə imkanının saxlanılması İnternetin tənzimlənməsi ilə bağlı ən çox araşdırılan məsələlərdən biridir. Bu gün böyük şirkətlər öz maraqlarını hüquqi müstəvidə qoruya bilirlər, lakin sıravi istifadəçilər üçün isə bu bir qədər çətindir.

İnternetin özünəməxsus imkanları bəzi cinayətlərin törədilməsi üçün çox əlverişli mühit yaratmışdır. Bu sahədə olan hüquqi boşluqlar isə bunun qarşısının alınmasında çətinliklər yaradır. İnternet həm ənənəvi cinayətlərin daha rahat şəkildə həyata keçirilməsi, həm də yalnız bu qlobal şəbəkəyə məxsus olan, geniş ictimaiyyətə məlum olmayan yeni cinayət növlərinin reallaşdırılması üçün əlverişli mühit kimi çıxış edir [5].

Artıq internet-cinayətlərin ənənəvi cinayət hallarını üstələyəcəyi, iqtisadi və siyasi proseslərə daha geniş şəkildə təsir edəcəyi proqnozlaşdırılır və kibercinayətkarlıq halları digər analoqları ilə müqayisədə daha sürətlə artmaqdadır. 2000-ci ilin əvvəllərindən başlayaraq kibercinayətkarlıqla hüquqi müstəvidə mübarizəyə başlanılmışdır. 2003-cü ildə Budapeştdə Avropa Şurası tərəfindən imzalanan Kibercinayətkarlıq haqqında Konvensiya isə hələlik müvafiq sahədə ən mühüm sənəd kimi çıxış edir [6].

Bu virtual məkanda cinayətkarlıq hallarının sürətlə artması, hər şeydən əvvəl, bu qlobal şəbəkənin xüsusiyyətləri – hamı üçün əlyetərli və açıqlıq olamsı, heç bir dövlətin və ya təşkilatın nəzarətində olmaması ilə bağlıdır. Həmçinin bu sahədə fəaliyyətlə bağlı effektli hüquqi tənzimləmə mexanizmlərinin olmaması, yurisdiksiya probleminin mövcudluğu, eləcə də bu sahədə peşəkar hüquq-mühafizə vasitələrinin və kadrlarının olmamaları hələ kiberməkanda cinayət əməllərinin sayının artmasına şərait yaradır.

Kibercinayətkarlıqla mübarizədə uğurlu tənzimləmə və mübarizə siyasətinin həyata keçiriləcəyi halda, onun artım tempinin aşağı salınması da istisna edilmir. Lakin eynilə real aləmdə olduğu kimi virtual aləmdə də tamamilə buna nail olmaq hələ ki, mümkün deyil.

İnternet hərbi məqsədlərə xidmət etmək üçün dövlət layihəsi kimi yaradılsa da, çox az

keçmədən ilkin yaradılma məqsədindən uzaqlaşdı. Dünyanın qloballaşmasına və virtuallaşması səbəb oldu, tədricən də insanlar və bəşəriyyət üçün artıq yeni hesab olunacaq müxtəlif təbiətli böyük təhlükələr gətirdi. İnsanların şəxsi həyat sirrinin və fərdi məlumatlarının, virtual məkanda intellektual mülkiyyət hüquqlarının qorunması, kibercinayətkarlıq və s. kimi təhlükələri özündə ehtiva etməsinə baxmayaraq, internet bütün dünyada sürətlə yayılmaqda, cəmiyyətin demək olar bütün fəaliyyət sahələrində tətbiq olunmaqla insanların gündəlik həyatının ayrılmaz tərkib hissəsinə çevrilməkdədir. İnternet şəbəkəsinin yaratdığı bu cür geniş imkanlar insanların həyat fəaliyyətinin bütün sferalarında böyük dəyişikliklərə səbəb olmaqdadır. Onun müasir həyatdakı rolu isə danılmazdır.

**Məqalənin aktuallığı**. Yuxarıda qeyd edilən məsələlərdən də göründüyü kimi İnternetin tənzimlənməsi aktual məsələ olaraq qalır. İnternet getdikcə cəmiyyətin, dövlətin, insanın fəaliyyət sferalarına daha dərin şəkildə nüfuz etməyə başlayır. Eynilə gerçək dünyada olduğu kimi, virtual məkanda da dövlətin, cəmiyyətin və ayrı-ayrı insanların maraqları, mənafeləri təmsil olunur. Nəzərə alsaq ki, dövlətin əsas funksiyalarından biri ictimai münasibətləri tənzimləmək, vətəndaşların hüquq və azadlıqlarını təmin etməkdir, deməli, internetin tənzimlənməsi zəruri məsələdir. Amma hər hansı bir dövlətə məxsus olmaması, bütün dünyanı əhatə etməsinə görə internetin tənzimlənməsi də qlobal miqyasda həyata keçirilən bir proses olmalıdır. Məhz buna görə də bu işdə dünya dövlətlərinin birgə fəaliyyət göstərməsi və səylərini birləşdirilmələri vacibdir.

**Məqalənin elmi yeniliyi**. İnternet şəbəkəsinin aktual problemləri göstərilmiş, bu sahədə çatışmazlıqlar araşdırılmış və həlli istiqamətlərinin tapılması təhlil edilmişdir. Qloballaşma şəraitində hər bir ölkə üçün vacib olan milli təhlükəsizliyin təmin edilməsi məsələsi, habelə insan hüquqlarının müdafiəsi məqalənin əsas məğzini təşkil etmişdir. İnformasiya cəmiyyətində ən mühüm ünsürlərdən biri olan intellektual mülkiyyətin qorunmasının vacibliyi məsələsi də məqalənin tədqiqat obyektlərindən biridir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən ali təhsil müəssisələrində və kolleclərdə kompüter şəbəkələri mövzusunun tədrisi zamanı tələbələrə əlavə məlumat verilməsi məqsədilə, habelə elmi-praktiki konfranslarda istifadə oluna bilər.

## Ədəbiyyat

1.Наумов В.Б., Право и Интернет: Очерки теории и практики, М.: Книжный дом «Университет», 2002.

2. http://rasim.az/index.php?option=com_content&task=view&id=144&Itemid=75.

3.http://elibrary.bsu.az/yenii/ebookspdf/konstitutsiya.pdf.

4. https://dmx.gov.az/page/21.html.

5.Əliquliyev R.M., Mahmudov R.Ş., İnternet fenomeninə çoxaspektli baxış. Ekspressinformasiya. İnformasiya cəmiyyəti seriyası. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2010, 96 s.

6.Бабкин С.А., Интеллектуальная собственность в Интернет. Изд-во: Центр Ю.

**М. Кафарлы**

## Современные проблемы регулирования Интернета

## Резюме

В статье исследуются современные проблемы регулирования Интернета. В том числе анализируется такие проблемы как определение Интернет-юрисдикции, защита личной жизни и персональных данных, защита интеллектуальной собственности в виртуальной среде, киберпреступность. Обосновывается необходимость регулирования Интернета для решения данных проблем.

**M. Gafarlı**

## Modern problems of Internet regulation

## Summary

The article deals with modern problems of Internet regulation. Problems in areas such as determination of Internet jurisdiction, protection of privacy and personal information, intellectual property rights protection in virtual space, cyber crime has been analyzed as well. The necessity of internet regulation in solving these problems is justified.

**Redaksiyaya daxil olub:** 09.02.2018